**AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

## Minimum istehlak səbətinin tərkibinə daxil olan bir sıra əsas ərzaq mallarının və onların istehsalında istifadə olunan malların ölkə ərazisindən aparılmasının tənzimlənməsinə dair tədbirlər haqqında

İqlim dəyişiklikləri və son dövrlər baş verən geosiyasi proseslər səbəbindən dünya bazarlarında əsas ərzaq mallarının qiymətlərində davamlı artım qeydə alınır, habelə qonşu ölkələrin bazarlarında həmin malların logistika-təchizat zəncirində problemlər yaranır.

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, baş verən proseslərin Azərbaycan Respublikasında əhalinin əsas ərzaq malları ilə təchizatına və ölkənin ərzaq təhlükəsizliyinə potensial mənfi təsirlərinin qarşısının alınması məqsədilə "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanının 28.5-ci bəndinə və "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli Fərmanının 1.2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Müəyyən edilsin ki:

1.1. siyahısı bu Qərarın əlavəsi ilə müəyyən edilən ərzaq mallarının və onların istehsalında istifadə olunan malların gömrük ərazisindən aparılması ölkədə mövcud olan ehtiyatlar və əhalinin müvafiq mallarla qısamüddətli dövrdə təminatı ilə bağlı proqnoz əsas götürülməklə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin müsbət rəyi əsasında həyata keçirilir;

1.2. bu Qərara əlavə edilən siyahıya daxil olan malların gömrük orqanları tərəfindən gömrük ərazisindən buraxılışı həmin malların Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin müsbət rəy məktubu ilə müşayiət olunması şərtilə həyata keçirilir;

1.3. bu Qərara əlavə edilən siyahıya daxil olan malların ölkədən aparılması ilə bağlı müraciət edən şəxs "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsinə uyğun olaraq tərtib edilmiş ərizəni gömrük ərazisindən aparılması istənilən malların növü, həcmi, təyinat ölkəsi, planlaşdırılan aparılma vaxtı, habelə həmin şəxs malların bilavasitə istehsalçısı olduğu təqdirdə, istehsal həcmi barədə məlumatlar ilə birlikdə "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 29.1-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim edir;

1.4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Qərarın 1.3-cü bəndində nəzərdə tutulmuş müraciətə onun təqdim olunduğu gündən 5 (beş) iş günü müddətində baxır;

1.5. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən müsbət rəy müraciətlə əhatə olunan mal partiyasının həcmi və müvafiq malların ölkədə mövcud olan ehtiyatları nəzərə alınmaqla, həmin malların gömrük ərazisindən aparılmasının yerli təchizata mənfi təsiri proqnozlaşdırılmadığı halda təqdim edilir;

1.6. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən müsbət rəyin təqdim edilməsindən imtina olunduğu halda, bu barədə müraciət edən şəxsə 5 (beş) iş günü müddətində əsaslandırılmış imtina məktubu təqdim edilir.

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

3. Bu Qərarın 1-ci hissəsi bu Qərara əlavə edilən siyahıya daxil olan malların Azərbaycan Respublikası Nazirlər Kabinetinin

2013-cü il 14 oktyabr tarixli 305 nömrəli Qərarı ilə təsdiq edilmiş “Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları”na uyğun olaraq gömrük ərazisindən aparılmasına şamil olunmur.

4. Bu Qərar 2022-ci il dekabrın 31-dək qüvvədədir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 18 mart 2022-ci il

№ 103

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2022-ci il 18 mart
tarixli 103 nömrəli Qərarına

**əlavə**

## Azərbaycan Respublikasının gömrük ərazisindən aparılması müvəqqəti olaraq tənzimlənən malların

## SİYAHISI

| Sıra №-si | XİF MN üzrə kod | Malın adı | |
|---|---|---|---|
| 1. | 0102 | Diri iribuynuzlu mal-qara | |
| 2. | 0104 | Diri qoyunlar və keçilər | |
| 3. | 0201 | Təzə və ya soyudulmuş iribuynuzlu mal-qara əti | |
| 4. | 0202 | Dondurulmuş iribuynuzlu mal-qara əti | |
| 5. | 0204 | Təzə, soyudulmuş və ya dondurulmuş qoyun əti və ya keçi əti | |
| 6. | 0207 11 | Ev toyuqlarının (Gallus domesticus) hissələrə ayrılmamış, təzə və ya soyudulmuş əti | |
| 7. | 0207 12 | Ev toyuqlarının (Gallus domesticus) hissələrə ayrılmamış, dondurulmuş əti | |
| 8. | 0207 13 | Ev toyuqlarının (Gallus domesticus) təzə və ya soyudulmuş cəmdək hissələri və ətin əlavə məhsulları | |
| 9. | 0207 14 (0207 14 990 1 istisna olmaqla) | Ev toyuqlarının (Gallus domesticus) dondurulmuş cəmdək hissələri və ətin əlavə məhsulları | |
| 10. | 0402 | Qatılaşdırılmış və ya şəkər və ya digər şirinləşdirici maddələr əlavə edilmiş süd və qaymaq | |

| Sıra №-si | XİF MN üzrə kod | Malın adı | |
|---|---|---|---|
| 11. | 0405 | Kərə yağı və süddən hazırlanmış digər piylər və yağlar; südlü pastalar | |
| 12. | 0407 | Qabıqlı, təzə, konservləşdirilmiş və ya suda bişirilmiş quş yumurtaları | |
| 13. | 0701-dən | Təzə və ya soyudulmuş kartof (istixanada yetişdirilən faraş kartof istisna olmaqla) | |
| 14. | Qrup 10 | Dənli bitkilər | |
| 15. | Qrup 11 | Unüyütmə-yarma sənayesi məhsulları; səməni; nişastalar; inulin; buğda özü | |
| 16. | Qrup 12 | Yağlı toxumlar və bar; Digər toxumlar, bar və dən; Dərman bitkiləri və texniki bitkilər; Saman və yem | |
| 17. | 1509 | Saflaşdırılmamış və ya saflaşdırılmış, lakin kimyəvi tərkibi dəyişdirilməmiş zeytun yağı və onun fraksiyaları: | |
| 18. | 1510 00 | Saflaşdırılmamış və ya saflaşdırılmış, lakin kimyəvi tərkibi dəyişdirilməmiş, yalnız zeytundan hasil olunmuş digər yağlar və onların fraksiyaları, bu yağların və ya fraksiyaların 1509 mal mövqeyindəki yağları ilə və ya fraksiyaları ilə qarışıqları da daxil olmaqla | |
| 19. | 1512 11 | Günəbaxan və ya saflor yağı və onların fraksiyaları, xam yağ | |
| 20. | 1512 19 | Günəbaxan və ya saflor yağı və onların fraksiyaları, digərləri | |

| Sıra №-si | XİF MN üzrə kod | Malın adı | |
|---|---|---|---|
| 21. | 1515 21 | Qarğıdalı yağı və onun fraksiyaları, xam yağ | |
| 22. | 1515 29 | Qarğıdalı yağı və onun fraksiyaları, digərləri | |
| 23. | 1516 20 | Bitki piyləri və yağları və onların fraksiyaları | |
| 24. | 1517 | Marqarin; 1516 mal mövqe-yindəki qida üçün yararlı olan piylərdən və ya yağlardan, yaxud onların fraksiyalarından başqa, bu qrupdakı heyvan və ya bitki piylərinin və ya yağlarının, yaxud müxtəlif piylərin və ya yağların fraksiyalarının qida üçün yararlı olan qarışıqları və ya hazır məh-sulları | |
| 25. | 1701 | Bərk halda şəkər qamışı və ya şəkər çuğunduru şəkəri və kimyəvi təmiz saxaroza | |
| 26. | 1901 10 000 0 | Pərakəndə satış üçün qablaşdırılmış körpə uşaq-lar üçün hazır məhsullar | |
| 27. | 1902 | İsti emala məruz qalmış və ya qalmamış, içlikli (ətdən və ya digər məhsullardan) və ya içliksiz, yaxud başqa üsulla hazırlanmış və ya hazırlanmamış, spagetti, makaron, əriştə, lazanya, klyotsklar, ravioli, kannelloni kimi makaron məmulatları; hazırlanmış və ya hazır-lanmamış kuskus | |
| 28. | Qrup 23 | Yeyinti sənayesinin qalıqları və tullantıları; heyvanlar üçün hazır yem | |